# Sosial münasibətlərin formalaşmasında dini inancların rolu

**Cahangir Şahmar oğlu Məmmədov**
*Azərbaycan Universiteti*
**E-mail:** Jahangirmammadovv@mail.ru

**Rəyçilər:** i.ü.f.d. A.T. Qasımova
p.ü.f.d.T.M. Verdiyeva

**Açar sözlər:** din, inanc, İslam, xristianlıq, yəhudilik, bütpərəstlik, atəşpərəstlik
**Ключевые слова:** религия, вера, Ислам, христианство, иудаизм, идолопоклонство, культ огня
**Key words:** religion, belief, Islam, Christianity, Judaism, idolatry, fire worship

Azərbaycanda ilk əhali sayının və etnik müxtəlifliyin zəngin olması, torpaqlarının yeraltı və yerüstü sərvətlərlə daim dolub-daşması ayrı-ayrı dövrlərdə bu ərazilərdə bir çox dinlərin və müxtəlif etnik qrupların yaşamasına səbəb olmuşdur. Bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar ölkədə yayılması, həmçinin uzun müddətli tolerant şəkildə yaşamaq, mehriban qonşuluq prinsipləri ilə bir-birinə qarşılıqlı təsir göstərmə, dini həyatın və yaşamın müxtəlifliyinə dəlalət etmişdir.

Azərbaycan dövlətinin siyasətində din amili özünəməxsus yer tutur. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev dini irsin qorunub saxlanmasına və inkişafına xüsusi həssaslıqla yanaşır. Prezidentimizin müvafiq sərəncamları ilə Azərbaycanda 2016-cı ilin "Multikulturalizm" ili, 2017-ci ilin isə "İslam Həmrəyliyi" ili elan edilməsi bunun əyani sübutudur [1]. Həmçinin 10-11 dekabr, 2002-ci il tarixində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən Azərbaycan Hökumətinin dəstəyi ilə Bakıda "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda ATƏT-ə üzv olan 55 dövlət, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir. 2006-cı il 28 fevral-5 mart tarixlərində Azərbaycanda səfərdə olmuş BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi Asma Cahangir cəmiyyətimizdə mövcud olan dözümlülük səviyyəsinin xoş təəssürat yaratdığını qeyd etmişdir. 1999-cu ildən etibarən, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda tolerantlıq günü (16 noyabr) xüsusilə qeyd edilir.

Azərbaycan ərazisində ilk insan məskənlərinin qədim zamanlara gedib çıxmasını ölkə ərazisində tapılmış bir sıra arxeoloji qazıntılar sübut edir. Bir çox şərq xalqları kimi qədim azərbaycanlılar arasında da kainatın dörd əsas ünsürdən - od, hava, su və torpaqdan ibarət olduğu barədə təsəvvürlər geniş yayılmışdır. Strabonun yazılı kitabələrində Qafqaz albanlarının günəş, ay və səmaya sitayiş etdikləri barədə məlumat verilib. Çoxallahlılıq ilk insanların məbəd olaraq tapındıqları bir çox cisimlərdə öz əksini tapmışdır. İnsanlar real məbud axtarışı zamanı "niyə burdayam?" sualına cavab axtarır, bunun üçün araşdırma edir və qarşılaşdığı sübutlar və dəlillər əsasında özünün məntiqi və düşüncəsi ilə dini tapır. Bu din anlayışı yaşam şərtləri və coğrafi mövqe olaraq insana təsir edir və yekunda öz sualına özü cavab tapır (7).

İnsan dini dərk etmək baxımından bir çox mərhələlərdən keçmişdir. Birinci mərhələ, instinktlərlə yaşayan insanlardır ki, bu tip insanlar fərqli bir mövqe tutarlar. Bu mərhələdə insan yalnız yemək, sığınacaq və digər ilkin ehtiyaclarının təmin edilməsini istəyir. Zəka ən aşağı səviyyədədir, ona görə də məhdud anlayışımızı genişləndirməyi mümkünsüz hala gətirir, hətta inkişafın mümkünlüyünün belə fərqinə varmır. Bu səviyyədə insan ətraf mühitə diqqət yetir-

mir və hərəkətlərinə görə məsuliyyət daşımır. Növbəti mərhələdə, insan nəfsinin və istəklərinin fərqindədir, o cümlədən başqalarının ləyaqət hüquqlarına bir az hörmətlə yanaşır. İnsan həyatında müəyyən bir məsumluq və özü öz həyatına təsir edə biləcək dəyişikliklər edə bilir. O zaman həyatı bir məktəb binası kimi düşünə bilərik, ən aşağı sinifdə ən çox tələbə təhsil alır. Bu fərziyyəni əsas götürsək, öyrənmə prosesi davam etdikdə, problemlər getdikcə mürəkkəbləşdiyindən öyrənənlərin sayı azalır.

Atəşpərəstlik də bu təsəvvürlərlə bağlı inanclar zəmnində meydana çıxmışdır. Azərbaycan ərazisində məskunlaşan əhalinin böyük bir qismi odu müqəddəsləşdirmiş, ona sitayiş etmişdir. Qədim inanclara əsasən od müqəddəs hesab olunur və oda sitayiş etmək insanların günahlarını yuyurdu (6).

Zərdüşti əqidələri e.ə. III əsrdən etibarən ehkam səciyyəsi daşımağa başlamışdır. Azərbaycan ərazisində Dərbəndə qədər zərdüştilik sasanilərin hərbi-siyasi uğurları ilə bağlı olaraq yayılmağa başlamışdır. Zərdüştilik dini də insanlara etiqad azadlığı, inanclarla bağlı seçim sərbəstliyi verir və bununla bağlı hər cür zorakılığı rədd edirdi. “Avesta”da bu haqda deyilir: “Ey Məzda, dünyanın başlanğıcında bizim üçün din yaratdın. Ruha bədən qəlibini verdin, ona özünə xas olan ağıl xüsusiyyətini bağışladın, davranış öyrətdin ki, hər kəs sərbəstliklə öz dinini seçib qəbul etsin” (Yəsna, 31-ci Hat, “Əhnəvəydqat”, 11) Zərdüştilik və onun dini kitabı olan “Avesta”da müxtəlif etnik mənsubiyyətə malik, mədəni özünəməxsusluğa və inanclara sahib insanların qarşılıqlı əlaqələri əsasında formalaşan sosial həmrəyliyə çağırışlar edilir: “Ey Məzda Əhura, ona azadlıq yolunu açdın ki, kəndliyə, ya kəndli olmayana tərəf meyl etsin” (Yəsna, 31-ci Hat, “Əhnəvəydqat”, 9. Atəşpərəstlərin məbədi Atəşgah adlanır (6).

Bütpərəstlik çoxallahlılıqla bağlı inancların məcmusu kimi ibtidai dinlərin zəminində yaranmışdır. Azərbaycan əhalisinin bütpərəstlik təsəvvürlərinin kökləri çox qədim dövrlərə gedib çıxır. Etnoqrafik və arxeoloji araşdırmalar ölkə ərazisində bütpərəstliyin mənzərəsini yaratmağa imkan verir. Ən qədim yazılı mənbələrdən sayılan “Kitabi Dədə Qorqud” dastanında da bu haqda məlumat verilmişdir. Qədim Azərbaycan ərazisində ölmüş əcdadların ruhlarına, qayalara və ağaclara (qayın, palıd və s.), müxtəlif təbiət hadisələrinə və səma cisimlərinə pərəstiş güclü olmuşdur. “Tanrı xan” adı ilə tanınan palıd ağacına da pərəstiş edilmişdir. Bütpərəstlik dininin əsas qayələrindən biri də insana kamilliyi görməyə yol göstərməkdir ki, bu da insanlarla münasibətdə və insanın özünə düşüncə tərzini dəyişməyə imkan verir. Azərbaycanda baş vermiş bir çox üsyanlar və hərəkatlar (xürrəmilik, məzdəkilər, hürufizm) xalqın həyatına təsir etmiş və insanları daha azad olmağa sövq etmişdir.

Azərbaycan xalqının qucaq açdığı dinlərdən biri də iudaizmdir. Azərbaycanda məskunlaşmasının tarixi 2600 il öncəyə gedib çıxan yəhudilərin bu böyük tarixi dövr ərzində azərbaycanlılar tərəfindən və ya digər etnik qrup və inanc sahibləri arasında nə vaxtsa dini ayrı-seçkiliyə məruz qalmalarına dair heç bir dəlil yoxdur. Yəhudilər Azərbaycana gəlməmişdən bu ərazilərdə müxtəlif dinlər və inanclar olub, lakin onların heç biri kənardan gəlməyib, burada formalaşıb. Azərbaycana kənardan gəlmiş ilk din olan yəhudilik həm də bu ərazilərdə yayılan ilk səmavi dindir. Azərbaycanda ən qədim yəhudi icması sayılan dağ yəhudiləri e.ə. VI əsrdə Yerusəlimdə “birinci xram” adlanan məbədin sökülməsi nəticəsində vətənlərini tərk etmiş qədim yəhudi qəbilələrinin nəslindəndir (4).

Azərbaycanda üç yəhudi icması - dağ, əşkinazi və gürcü yəhudiləri icmaları mövcuddur. Bütövlükdə, ölkədə yəhudilərin sayı təxminən 16.000-dir. Bunlardan 11.000-i dağ yəhudiləridir ki, onların da təxminən 6.000-i Bakıda, 4.000-i Qubada, 1000 nəfəri isə digər şəhərlərdə yaşayır. Dağ yəhudiləri hazırda ölkədəki bütün yəhudi diasporu içərisində çoxluq təşkil edir. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakıda və Sumqayıtda yaşayır. Gür-

cü yəhudiləri təxminən 700 nəfərdir. Onların ölkəmizə gəlişi əsasən XIX əsrin sonuna, sənaye inqilabı dövrünə təsadüf edir (7).

Xristianlığın Azərbaycanda yayılması hələ dinin yeni yaranıb inkişaf etməsi ilə başlamışdır. İsa məsihin möcüzələr göstərərək insanlara Allah vasitəsi ilə şəfaə verməsi bizim ölkəmizdə də bu dinə inam yaratmış və inkişafı üçün şərait yaratmışdır. Xristianlığın ölkə ərazisində yayılması da yəhudilərin Azərbaycana kütləvi köçü ilə əlaqədardır. Eramızın 70-ci illərində Qüdsdən Qafqaza yəhudilərin böyük köçü bu dini ölkəmizə gətirən amillərdəndir. Akademik Z. Bünyadov göstərir ki, Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün mübarizə aparmışlar. IV-V əsrlərdə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır. Katolikosun göstərişi ilə feodallar öz ərazilərində kilsə üçün xüsusi yerlər ayırırlar. Bölgədə kilsələr tikilir, dini kitablar siryani, arami və yunan dillərindən Alban dilinə tərcümə edilirdi [3].

İslam dininin Azərbaycanda yayılması ərəb fəthləri ilə bağlıdır. Ərəblərin Azərbaycana gəlişi ilə (639-cu il) Ərdəbildən Dərbəndə qədər irəliləmələri bu ərazilərdə dini inancın dəyişməsinə təkan vermişdir. Fəth olunmuş ərazilərdə İslam dini könüllülük və ya cizyə vergisi hesabına yayılırdı. 661-ci ilədək bu prosesin başa çatması ərəb mənbələrində qeyd olunmuşdur. Azərbaycanda islamlaşma prosesini bir neçə mərhələyə bölmək olar. İlkin mərhələdə digər inanc sahiblərinin bu dini qəbul etməməsi savaşlara səbəb olurdusa, İslam dininin ədaləti bərqərar etməsi və dini qəbul edənlərə güzəştlərin tətbiq olunması onun yayılması və inkişaf etməsini sürətləndirmişdir. İslam inancın güclə qəbul etdirilməsinin əleyhinədir. Quranda bu iş Allahın iradəsinə bağlanır. “Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyil. Sənin işin ancaq İslamı təbliğ etməkdir”) (Yunus, 99) (6).

Beləliklə, Azərbaycanda bir çox dinlərin yaranıb inkişaf etməsi etnik tərkibdə dəyişikliklərə və Azərbaycanın tolerant ölkə kimi dünyaya nümunə olmasına gətirib çıxarsa da, xalq olaraq daim birliyimizi qoruyub saxlamağa nail olmuşuq. Hal-hazırda da Azərbaycanda bir çox din mənsubları və etnik azlıqlar yaşayır. 2009-cu ilin statistikasına əsasən, Azərbaycanda 793 dini qurum qeydiyyatdan keçmişdir ki, onlardan konfessional baxımdan 765-i İslam, 28-i isə qeyri-islam (xristian-17; yəhudi-8; krişna-1; bəhai-2) təmayüllüdür (5). Bu Azərbaycan Respublikasının qanunvericiliyində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər bir şəxs vicdan azadlığı hüququna malikdir. Konstitusiyanın 18-ci maddəsinin 1-3 bəndlərində isə göstərilir ki,” Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır”. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır (2).

**Məqalənin aktuallığı.** Respublikamızda ilk əhali sayının və etnik müxtəlifliyin rəngarəngliyi, torpaqların yeraltı və yerüstü sərvətlərlə zənginliyi ayrı-ayrı dövrlərdə bu ərazilərdə bir çox dinlərin və etnik qrupların yaşamasına gətirib çıxarmışdır. Müxtəlif dinlər və bir çox dini inancların ölkədə yayılması, insanların tolerant şəkildə yaşamsına, mehriban qonşuluq prinsipləri ilə bir-birinə qarşılıqlı təsir göstərməsinə, dini həyatın və yaşamın müxtəlifliyinə səbəb olmuşdur. Bütün bunlar sosial münasibətlərin formalaşmasında dini inancların rolunu bir daha sübut edir. Məqalə də bu kimi vacib məsələyə həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə dinin insanlara necə təsir etdiyi, dinlərin Azərbaycanda necə yayılması və yaşam mühiti ilə əlaqəsindən bəhs edilmişdir. Həmçinin dinin sosial mü-

nasibətlərdə kəsb etdiyi önəmi vurğulanmışdır. Belə bir nəticə hasil olur ki, din insanların yaşamını dəyişməmiş, sadəcə olaraq onlara yol göstərmişdir. Dini düzgün anlamış insan dini dəyərləri sosial münasibətlərlə əlaqələndirir və nəticə olaraq vəhdət təşkil edən həyatından məmnun qalaraq cəmiyyətə asanlıqla adaptasiya olur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru. Beynəlxalq konfrans: Bakı, 2. 6-7 noyabr 2009.
2. Hüseynov S.Y. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, 2012.
3. Əlizadəv A.A. Xristianlıq: tarix və fəlsəfə - ilk çağlar. Bakı, 2007.
4. B.A. Baranovskiy, Y.N. İvanov. Религии мира, 2011.
5. Иудаизм. Минск, Книжний домь, 2006.
6. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı, www.scwra.gov.az
7. https://azerbaijan.az/related-information/213
8. https://azerbaijan.az/related-information/212

**Дж.Ш. Мамедов**

## Роль религиозных верований в формировании общественных отношений

## Резюме

В этой статье обсуждается, как религия влияет на людей, как религия распространяется в Азербайджане и как она влияет на окружающую среду. Она также объясняет важность религии в социальных отношениях. Из того, что я сказал, можно сделать вывод, что религия руководила людьми, не меняя их жизни. Человек, который понимает религию, правильно связывает религиозные ценности с социальными отношениями и, в результате, легко адаптируется к обществу, наслаждаясь единой жизнью.

**Dj.Sh. Mammadov**

## The role of religious beliefs in the formation of social relations

## Summary

This article discusses how religion affects people and how it spread in Azerbaijan and how they relate to the social environment. The importance of religion in social relations was also emphasized. From what I have said above, it can be concluded that religion has not changed people's lives, it has simply guided them. A person who understands religion in a right way, can associates religious values with social relations and, as a result, easily adapts to society with enjoying unity of life.

**Redaksiyaya daxil olub:** 04.02.2021